Heydər Əliyev - 100

# Bu gün hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi var



*Ümummilli liderimiz Heydər Əliyevin çoxcəhətli titanik, bəşəri, beynəlxalq aləmdə əks-səda doğuran siyasi-ictimai fəaliyyətini təhlil etmək bir məqalə həcmində deyil. Biz Heydər Əliyevin nə qədər uzaqgörən siyasətçi olduğunu düzgün işləyib hazırladığı "Dövlət Neft Strategiyası" adlı siyasətindən bir daha aydın görürük. Onun böyük siyasətə qayıdışı da bu prioritetin əsas göstəricisidir.*

Bu gün Azərbaycan istər siyasi, istər hərbi, istər iqtisadi gücünə görə, region ölkələri arasında liderdir. Heydər Əliyev çətin anlarda böyük zəka və idarəçilik məharəti ilə Azərbaycanı sürükləndiyi bəlalardan qurtarmış və irəliyə doğru aparmışdır.

Məhz Heydər Əliyev demokratik, müstəqil, dünyəvi və unitar Azərbaycanda böyük siyasi və sosial-iqtisadi uğurlara nail olmuşdur. Onun idarəçilik məharəti bu islahatların düzgün aparıldığına bir dəlildir.

Bilirik ki, Azərbaycanın müstəqillik yoluna çıxması Heydər Əliyevin Naxçıvan MR-nin Ali Məclisinə rəhbərlik etdiyi dövrdən başladı. Məhz böyük siyasətçi Heydər Əliyevin 1990-cı ildən sonra Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi, apardığı müdrik siyasət Muxtar Respublikanı erməni təcavüzündən qorumuşdur. Belə bir şəraitdə dəstəyi yalnız xalq olan dahi öndər Heydər Əliyev bir daha Azərbaycanın dövlətçiliyinin qorunması üçün şücaətli addımlar ataraq dövlət çevrilişi etmək istəyən silahlı birləşmələri ləğv etdi. Burada da idarəçilik təcrübəsi öz sözünü dedi. Qiyamçılar Heydər Əliyev - xalq birliyinin qarşısında məğlub oldular. Və ümummilli lider Heydər Əliyev ölkədə anarxiyaya, özbaşınalığa, qanunsuzluğa son qoydu. Dövlətçiliyimizin təməl sütunlarını möhkəmləndirdi.

Azərbaycanın başının üstünü qara buludlar alanda, təbii ki, ölkənin ağ günə çıxması sual altına düşmüşdü və belə bir çətin situasiyadan xalqı yalnız böyük siyasət adamı qurtara bilərdi. Buna görə biz xalq olaraq həmin illərdə Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsini təkidlə tələb etdik və əlbəttə, bu addımımıza görə bəzi qüvvələr tərəfindən təqiblərə məruz qaldıq. Lakin Allah Azərbaycan naminə həm bizi qorudu, həm də Heydər Əliyevi Azərbaycanda yenidən hakimiyyət başına gətirməklə gələcək uğurlarımızın təməlini möhkəmləndirdi. Şəxsən, mən də o çətin illərdə ulu öndəri dəstəkləyənlərdən olmuşam və buna görə özümü çox xoşbəxt hesab edirəm. Çünki Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsini istəyən biri kimi indi aşkar görürəm ki, çox doğru qərar vermişəm.

Heydər Əliyev Azərbaycanın dünya birliyində tanınması və layiqli yerini tutması üçün çoxlu səfərlər həyata keçirib. Buradan şahid oluruq ki, Heydər Əliyev güclü bir diplomat idi. O, öz diplomatik bacarığı sahəsində dərin biliyə malik idi.

Hamımız yaxşı xatırlayırıq ki, hakimiyyətə gəldikdən sonra, Heydər Əliyev Azərbaycanda hüquqi dövlət yaratmaq üçün fəaliyyətə başladı. Azərbaycanda sivil, normal, demokratik cəmiyyət yaradılması sahəsində məqsədyönlü strategiya işləyib hazırladı.

Heydər Əliyev geniş xalq kütlələri ilə sıx əlaqəyə girməyə, onların arzu və təkliflərini dinləməyə böyük üstünlük verirdi. Doğurdan da, Heydər Əliyev hər bir rayon, təsərrüfat və müəssisə başçısını, mühəndisi, taxılçını, pambıqçını diqqətlə dinləyir, lazımi məsləhətlər verir, onları səfərbər edirdi. Həm də iqtisadiyyatımızın hər bir sahəsində inkişafa, xalqın sosial vəziyyətinin yaxşılaşmasına tükənməz səy göstərirdi. Bu da birmənalı onu deməyimizə tam əsas verir ki, dövlətimizin möhkəmlənməsi birbaşa ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Nə xoş ki, bu gün hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi var.

Çox sevindirici haldır ki, bu gün ulu öndərin uzaqgörən siyasətini onun layiqli davamçısı cənab İlham Əliyev davam etdirir. Reallıq göstərir ki, Prezident İlham Əliyev ötən illər ərzində Azərbaycanın inkişafı və güclənməsi üçün uğurlu addımlar atıb. Ən əsası da, böyük bir Zəfərə imza atıb, cəmi 44 günə işğal altındakı torpaqlarımızı Müzəffər Ordumuzun gücü sayəsində düşməndən geri alıb.

Dövlət başçısının əzmkarlıqla davam etdirdiyi çoxşaxəli islahatlar kursu respublika iqtisadiyyatında böyük uğurlara zəmin yaradıb, hər bir vətəndaşın həyatında irəliləyişlərə səbəb olub. Bütün bu uğurlar Prezident İlham Əliyevə ümumxalq etimadını əhəmiyyətli dərəcədə gücləndirib və elə buna görə də Heydər Əliyev siyasətinin İlham Əliyev simasında davamı cəmiyyətin bütün təbəqələrinin istək və arzusudur.

**Turan Əliyev,**
***Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsinin rəis müavini***